

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

20 iyul 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 27 (3641)

İyulun 15-də Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Nikol Paşinyanla növbəti üçtərəfli görüşü keçirildi. Görüşün yekunlarına dair Şarl Mişelin mətbuata verdiyi açıqlamalar göstərdi ki, müzakirə mövzusu olan bütün məsələlər regionda yaranmış yeni reallıqların prinsiplərini özündə ehtiva etməklə Azərbaycanın milli maraqlarına tam uyğundur.



## SÜLH GÜNDƏLİYİ MÜZAKİRƏ OLUNUB

### Azərbaycanın yaratdığı yeni reallıqlar nəzərə alınır

**Bakı İrəvanı sülhə məcbur edir**

"Brüssel prosesi" çərçivəsində keçirilən sayca altıncı bu görüş də Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılması ilə bağlı mövqeyinin konstruktivliyini, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslandığını ortaya qoydu.

Bütün görüşlərdə müzakirələr sərhədlərin delimitasiyası, regionda kommunikasiyaların bərpası, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması ətrafında aparılıb. Bu müzakirələrdə ermənilərin iddiaları müzakirə olunmur. Ermənistanın əldə olunmuş razılaşmaların tələblərini yerinə yetirməməsinə, sülhə qarşı direniş göstərməsinə baxmayaraq, Avropa İttifaqı Şurası postmüharibə şəraitində yalnız yeni reallıqlara uyğun davranmağı vacib hesab edir. Ermənilərin prosesləri ləngitmək cəhdləri də iflasa uğrayıb.

Altıncı görüşdə Ermənistanın baş nazirinin Azərbaycanın 86,6 min kvadratkilometr olmaqla ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşmasını, delimitasiya üçün siyasi çərçivə kimi 1991-ci il "Alma-Ata Bəyannaməsi"nə sadiqliyini təsdiq etməsi, bütövlükdə danışıqlar prosesinin uğuru kimi qiymətləndirilə bilər.

Sonuncu Brüssel görüşü də sülhün əldə olunmasının yeganə yolunun Azərbaycanın şərtlərinin yerinə yetirilməsi olduğunu növbəti dəfə təsdiq etdi. Bu baxımdan "Brüssel prosesi" çərçivəsində keçirilən görüşlər Prezident İlham Əliyevin diplomatik uğuru kimi dəyərləndirilir.

**Milli maraqlar təmin olunur**

Üç il öncə, noyabrın 10-da imzalanmış məlum üçtərəfli Bəyanatın dördüncü bəndində göstərilir ki, Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Amma təəssüflə qeyd edilməlidir ki, ötən dövr ərzində Bəyanatın bu bəndi yerinə yetirilməyib. Azərbaycanın Qarabağ bölgəsində həm Ermənistan ordusunun bölmələri, həm də separatçı rejimin silahlıları qalmaqdadır.

Bu erməni silahlıları Azərbaycan ordusunun bölmələrinə qarşı dəfələrlə təxribatlara cəhd etsələr də, hər bir təxribatın qarşısını ordumuz qətiyyətlə alıb, düşmən ciddi təlafata məruz qalıb. Bu dövr ərzində Azərbaycan ordusu Qarabağ iqtisadi rayonu ərazisində bir neçə vacib yüksəkliyi separatçılardan təmizləyib.

Bu onu bir daha təsdiq edir ki, istər diplomatik müstəvidə, istərsə də güc tətbiq etmək zərurəti yarananda Azərbaycan milli maraqlarını qətiyyətlə təmin edir.

## Rəsmi xronika

- Prezident İlham Əliyev iyulun 19-da Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripovu qəbul edib.
- Prezident İlham Əliyevin iyulun 18-də ölkəmizdə işgüzar səfərdə olan İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani ilə təkbətək görüşü olub.
- Prezident İlham Əliyev iyulun 18-də "Təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının təmin edilməsi sahəsində dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi üzrə Koordinasiya Komissiyası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Fərman imzalayıb.
- Prezident İlham Əliyev iyulun 18-də "Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 avqust tarixli 429 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev iyulun 17-də Türkiyə Böyük Millət Məclisinin (TBMM) Xarici əlaqələr komitəsinin sədri Fuat Oktayın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.
- Prezident İlham Əliyev iyulun 17-də Ukraynaya humanitar yardım göstərilməsi məqsədilə Azərbaycan Respublikasının Energetika Nazirliyinə vəsait ayrılması haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev iyulun 17-də Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Cavanşir Əyyub oğlu Feyziyevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev iyulun 17-də Əhəd Mikayıl oğlu Abıyevin Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

## VƏTƏNDAŞLARIN QƏBULU KEÇİRİLİB

### *Müraciətləri dinləyən daxili işlər naziri aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyulun 18-19 tarixlərində Mingəçevir Şəhər Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Mingəçevir şəhərindəki ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

*Ardı 2-ci səhifədə.*

## QAYIDIŞIN BİR İLİ...



**"Böyük Qayıdış"la bağlı 2022-2026-cı illəri əhatə edən dövlət Proqramına əsasən 34 min 500 ailə azad edilmiş ərazilərə köçürüləcək**

***Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı qələbə nəticəsində 30 ilə yaxın işğal altında qalmış torpaqlara məcburi köçkünlərin qayıdışına imkan yarandı. Yurd-yuvasından didərgin düşmüş vətəndaşlarımız öz evlərinə, doğma kəndlərinə qayıdırlar.***

Bir çox ekspertlər qeyd edirdilər ki, ermənilərin törətdiyi dağıntılar, minalanma təhlükəsi Qarabağa və Şərqi Zəngəzura qayıdışı yubada bilər. Lakin Prezidentin azad olunmuş ərazilərdəki bərpa-quruculuq işlərinə diqqəti sayəsində Zəngilanın Ağalı kəndinə qayıdış 44 günlük müharibədən cəmi il yarım sonra baş tutdu.

Ümumiyyətlə, işğaldan azad edilmiş ərazilərin barpası və "Böyük Qayıdış"ın təmin olunması yeni strateji mərhələdə Azərbaycanın əsas prioritetləri sırasında yer alır.

Ötən il Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilən "Böyük Qayıdış"la bağlı 2022-2026-cı illəri əhatə edən dövlət Proqramı işğaldan azad edilmiş torpaqlarımıza yenidən həyatın qaytarılmasında mühüm rola malikdir. Proqramın əsas hədəfi ilk beşillikdə 34 min 500 ailəni azad edilmiş ərazilərə köçürməkdir.

**"Ağıllı" Ağalı kəndi**

İşğaldan azad olunmuş bütün regionlarımızda aparılan böyük quruculuq-abadlıq işinin ilk qaranquşu, ilk abadlaşdırılan region Zəngilan rayonunun Ağalı kəndi oldu. Bu kəndin bərpası Azərbaycanın Vətən müharibəsindəki qələbəsinin növbəti təntənəsinə çevrildi.

2021-ci ilin aprelində dövlətimizin başçısı tərəfindən qoyulan "Ağıllı kənd" layihəsinin təməli qısa zamanda yeni sakinlərin Ağalıya qovuşmasına böyük təkan verdi. Sürətli və planlaşdırılmış şəkildə aparılan fəaliyyət nəticəsində 2022-ci il iyulun 19-dan başlayaraq Ağalı kəndinə qayıdış çərçivəsində dörd mərhələdə 41 ailə köçürüldü. Bu, təxminən 200 nəfər deməkdir.

Kəndin qısa müddətdə sakinlərin ixtiyarına verilməsinə baxmayaraq, bütün zəruri infrastrukturlar yüksək səviyyədə idi.

Kənddə innovativ tikinti materiallarından istifadə olunmaqla tam izolyasiya olunmuş 200 fərdi ekoloji ev, ikimərtəbəli 4 qeyri-yaşayış binası, 360 şagird yerlik məktəb və 60 yerlik uşaq bağçası tikilib. Növbəti mərhələ çərçivəsində 150 evin tikilməsi nəzərdə tutulur. Kənddə enerjiyə təlabat alternativ enerji mənbələri vasitəsi ilə təmin olunur.

Beləliklə, Azərbaycan dövləti kənardan heç bir yardım olmadan, öz gücünə işğaldan azad olunmuş əraziləri yenidən qurur, nəhəng infrastruktur layihələri reallaşdırır.

**Laçına gedən köç...**

"Böyük qayıdış"ın köç karvanlarından biri də Laçına uzanır. Bakı şəhərindən yola çıxan növbəti köç karvanı artıq Laçına çatıb. Laçın şəhəri bu dəfə 18 ailəyə qucaq açıb və daha 73 laçınlının yurd həsrəti bitib.

Bununla da, Laçın şəhərində indiyədək 111 ailənin, yeni 424 nəfərin daimi məskunlaşması təmin edilib.

# VƏTƏNDAŞLARIN QƏBULU KEÇİRİLİB

**Müraciətləri dinləyən daxili işlər naziri aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib**





*Əvvəli 1-ci səhifədə.*

Sonra Şəhər Polis Şöbəsinin inzibati binasında Yevlax, Ağdaş, Ucar, Şuşa, Tərtər, Mingəçevir şəhər və rayonlarından qəbula gələn 96 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerindəcə həll edilib.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak edib. 32-si Vətən müharibəsi iştirakçısı olmaqla xidmətə qəbulun şərtlərinə uyğun gələn 225 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.



# Püşkatma yolu ilə təyinat



**Daxili işlər naziri gənc zabitlərə tövsiyə edib ki, vətəndaşlara münasibətdə yüksək mədəniyyət və təmkinlə yanaşılmalı, qanunçuluğa əməl edilməlidir.**

***İyulun 14-də Daxili İşlər Nazirliyində Polis Akademiyasını əyani bitirən məzunlar polis orqanlarında orta rəis heyəti vəzifələrinə püşkatma yolu ilə təyin olunublar.***

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov tədbirdə gəncləri zabit rütbələrinə layiq görülmələri münasibətilə təbrik edib, təyinatın şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında gerçəkləşdiyini vurğulayıb.

Püşkatma yolu keçirilən təyinatlarda 43 məzun Bakı şəhərinin ərazi polis orqanlarına, Akademiyanı fərqlənmə diplomu ilə bitirən 4 məzun isə Nazirliyin aparatında müxtəlif vəzifələrə təyin edilib.

Daxili işlər naziri V.Eyvazov gənc zabitlərə xidməti intizam qaydalarına mütləq qaydada riayət etmələrini, vətəndaşların müraciətlərinə həssaslıqla və operativ yanaşmalarını, onlarla ünsiyyətdə yüksək mədəniyyətli və təmkinli olmalarını tövsiyə edib.

# Vətən müharibəsi iştirakçıları xidmətə qəbul olunublar

**Sıra baxışında seçilən 236 nəfərin 29-u Vətən müharibəsinin iştirakçısıdır.**



***İyulun 13-də daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.***

Sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 236 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 29 nəfəri Vətən müharibəsinin iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov xidmətə qəbulun şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirildiyini qeyd edib. O, seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

# Kursantlarımız müsabiqədə fərqləniblər

**Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyi ADA Universitetinin kampusunda Beynəlxalq humanitar-hüquq üzrə müsabiqə keçirib.**

Müsabiqənin birinci mərhələsində BQXK-nın Azərbaycandakı nümayəndəliyinin, DİN-in Beynəlxalq Əməkdaşlıq İdarəsinin və Bakı Dövlət Uninversitetinin əməkdaşları tərəfindən mühazirələr oxunub.

Mühazirələrdən sonra müsabiqənin ikinci mərhələsi keçirilib. Bu mərhələdə DİN-in Polis Akademiyasının, Bakı Dövlət Universitetinin, Dövlət Gömrük Komitəsinin Akademiyasının, Daxili Qoşunların Ali Hərbi Məktəbinin, Milli Aviasiya Akademiyasının və ADA Universitetinin tələbələrindən ibarət 6 komanda iştirak edib.

Müsabiqədə Polis Akademiyasını "Dövlət və hüquq nəzəriyyəsi" kafedrasının baş müəllimi, polis polkovniki Zaur Bağırovun rəhbərliyi ilə 4-cü kursun kursantları Əli Məhərrəmli, Alparslan Məmmədli və  Zamin Sadıqov təmsil ediblər.

Yarış zamanı iştirakçıların rol-oyunu-simulyasiya və praktiki tapşırıqlar zamanı beynəlxalq humanitar hüquq normaları barədə bilikləri, eləcə də bu normaları tətbiq etmə bacarıqları müstəqil hakimlər heyəti tərəfindən qiymətləndirilib.

Müsabiqənin qalibi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının komandası seçilib. DİN-in Polis Akademiyası 2-ci, ADA Universitetinin komandası isə 3-cü yerə layiq görülüb.

# Narkotiklərlə mübarizə davam edir

***2023-cü ilin yanvar-iyun ayları ərzində narkomanlığa və narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin nəticələri Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən müqayisəli şəkildə təhlil edilərək ümumiləşdirilmişdir.***

Cari ilin yanvar-iyun ayları ərzində hüquq mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 5881 cinayət faktı aşkarlanmışdır. Onlardan 2048-i narkotik vasitələrin qanunsuz satışı, 3638-i narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 166-sı qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 29-u isə bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olmuşdur.

Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 4 ton 623 kiloqramdan artıq narkotik vasitələrin və psixotrop maddələrin 1 ton 517 kiloqram 650 qramdan artığını heroin, 2 ton 510 kiloqram 387 qramdan çoxunu marixuana, 183 kiloqram 113 qramdan çoxunu tiryək, 50 kiloqram 886 qrama yaxınını həşiş, 247 kiloqramdan artığını psixotrop maddələr, 113 kiloqram 982 qramdan artığını isə digər narkotik vasitələr təşkil etmişdir.

Həmçinin göstərilən dövr ərzində 38418 ədəd həb metadon, 8476 ədəd çətənə bitkisi, eləcə də 3 kiloqram 153 qramdan artıq, 7631 ədəd kapsul və 953 ədəd həb güclü təsir edən maddə və 40 qramdan artıq prekursor qanunsuz  dövriyyədən götürülmüşdür.

**DİN əməkdaşları tərəfindən 4 ton 623 kiloqramdan artıq narkotik vasitələr və psixotrop maddələr qanunsuz dövriyyədən çıxarılıb. Bunun "qara bazar"da ümumi dəyəri 219 milyon 430 min manat kimi qiymətləndirilir.**

Hesabat dövründə Daxili İşlər Nazirliyinin təşkilatçılığı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə 298,98 hektar sahədən çəkisi 147 ton 477 kiloqramdan çox olan 438018 ədəd yabanı halda bitmiş narkotik tərkibli bitkilər müəyyən olunaraq müvafiq qaydada məhv edilmişdir.

Müvafiq dövr ərzində narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 4277 nəfər cəlb edilmişdir.

2023-cü ilin yanvar-iyun ayları ərzində qanunsuz dövriyyədən götürülmüş 4 ton 623 kiloqramdan artıq narkotik vasitələrin və psixotrop maddələrin ümumilikdə dəyəri 219 milyon 430 min AZN kimi qiymətləndirilir.

Təhlil göstərir ki, 2022-ci ilin yanvar-iyun ayları ilə müqayisədə 2023-cü ilin müvafiq dövrü ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq mühafizə orqanları tərəfindən aşkar edilən faktların ümumi sayı 103, satış məqsədi olmadan qanunsuz əldə edilib saxlanılması ilə əlaqədar faktların sayı 175, qaçaqmalçılıqla bağlı cinayətlərin sayı 8 fakt, məsuliyyətə cəlb edilmiş şəxslərin sayı 186 nəfər, qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələrin çəkisi isə 1 ton 204 kiloqram 707 qramdan çox artmışdır. O cümlədən, narkotiklərin qanunsuz satışı ilə bağlı faktların sayı 5, digər növ cinayət faktlarının sayı 27, narkotik xassəli bitkilərin qanunsuz kultivasiya edilməsi ilə bağlı faktların sayı 40, qrup halında olan cinayətlərin sayı isə 31 fakt azalmışdır.

Daxili İşlər Nazirliyi tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 44510 nəfər istiqamətləndirilmişdir. Onlardan narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilmiş 1377 nəfərdən 744-nün istifadəçi olması müəyyən olunmuş və bununla bağlı zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

*Natiq Cavadov,*
*polis polkovnik-leytenantı*

# ADI EHTİRAMLA XATIRLANACAQ...

## Şəhidlik zirvəsinə aparan döyüş yolu





Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 44 günlük Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçularından biri də çavuş Ömərov Orxan İmran oğludur. O, 1991-ci il oktyabrın 17-də Azərbaycanın gözəl guşələrindən olan Quba rayonunun Qonaqkənd qəsəbəsində doğulub. Orxan Ömərovlar ailəsinin yeganə oğul övladı idi. Atası İmran Ömərov 2000-ci ildə dünyasını dəyişib. Anası Rəna Ömərova evdar qadındır. Gülzədə və Albina adlı bacıları var.

Orxan 1941-1945-ci illər müharibəsi iştirakçısı Aslan Aslanovun adını daşıyan Qonaqkənd qəsəbə orta məktəbinin məzunudur.

2010-cu ilin yanvar ayında Orxan müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində hərbi xidmət keçib. 2011-ci ilin iyul ayında hərbi xidmətdən tərxis olunub.

2013-cü ilin mart ayının 29-da Orxan öz arzusu ilə Daxili Qoşunların tərkibində müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Daxili Qoşunların sıralarında öncə 17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun radiotelefonçu-atıcısı, sonra 17074 saylı hərbi hissəyə keçirilərək xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun atıcı-sanitarı və nəhayət, 67987 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun atıcısı vəzifələrinə təyin edilib. Silahdaşları ilə əlaqə saxlayaraq Orxanın xidmət və döyüş yolu barədə onların xatirələrini dinlədim, danışdıqları maraqlı məqamları qeydə aldım.

67987 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun yarımqrup komandiri baş çavuş Nicat Gülməmmədov da Vətən müharibəsi iştirakçısıdır. Söhbət zamanı Orxanı 2019-cu ilin noyabr ayından tanıdığını dedi. Tabeliyində olmuş Orxanı nizam-intizamlı, bacarıqlı, yoldaşlıqda etibarlı, istənilən çətinliyin öhdəsindən gələn silahdaşlarına xoş ovqat aşılayan hərbi qulluqçu kimi xatırladığını nəzərə çatdırdı. Təlimlərdə çeviklik, məharət nümayiş etdirdiyini, atıcılıq üzrə yarışlarda uğurlu nəticələr göstərdiyini bildirdi. Yarımqrup komandirinin sözlərinə görə, Vətən müharibəsi başladıqda öncə ehtiyat qüvvə qismində 16077 saylı hərbi hissəyə göndəriliblər. Hərbi hissədə döyüş tapşırıqlarının icrasına hazırlıq görülüb. Oktyabrın ortalarına yaxın Müdafiə Nazirliyinin xüsusi təyinatlı bölmələrinin hərbi qulluqçuları ilə birlikdə döyüşlərə qatılıblar. Qeyd etdi ki, Orxanın döyüş yolu Füzuli, Xocavənd, Xocalı rayonlarından və Şuşa ətrafındakı ərazilərdən keçib. Snayper silahından sərrast atəşlə erməni işğalçılarına qan uddurub. Baş çavuş N.Gülməmmədov danışdı ki, Şuşa istiqamətində irəliləyən döyüşçülərimizin bir qrupuna Laçın-Şuşa yolunu bağlamaq, bu istiqamətdən düşmənin təminatını kəsmək tapşırığı verilib. Yolu nəzarətə götürməyə imkan verən mühüm yüksəkliyi ələ keçirərək orada mövqelənibləр. İşğalçıların həmin yüksəkliyi geri almaq və yolu açmaq cəhdləri dəf edilib. Düşmən buna cavab olaraq yüksəklikdəki mövqelərimizi artilleriyadan və tanklardan şiddətli atəşə tutub. Noyabrın 6-dan 7-nə keçən gecə sözügedən yüksəklik növbəti dəfə intensiv atəşə məruz qalarkən hərbi qulluqçularımızdan leytenant Qəzənfər Məmmədov, çavuşlar Orxan Mirzəyev, Orxan Ömərov və kiçik çavuş Mikayıl Mikayılzadə şəhid olublar, onlarla döyüşçü isə ağır yaralanıb.

Vətən müharibəsi iştirakçısı, 67987 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun pulemyotçusu baş çavuş Hüseyn Quliyev Orxan haqqında silahdaşlarının söylədiklərini təsdiqlədi. Şəhidin xatirəsinin həmişə anıldığını vurğuladı. Redaksiyamıza Orxanla bağlı maraqlı şəkillər göndərdi.

Şəhid 2020-ci il noyabrın 11-də Qonaqkənd qəsəbəsinin qəbiristanlığında atasının məzarı yanında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 15, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları, həmçinin Azərbaycan Respublikası Müdafiə nazirinin 28 dekabr 2020-ci il tarixli əmri ilə çavuş O.Ömərov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif edilib.

*Yalçın Abbasov*

# ÖRNƏK GENERAL ÖMRÜ



**Mənalı həyatını Vətənə həsr etmiş, keçdiyi ömür yolu ilə hər bir polis əməkdaşına örnək olacaq təqaüddə olan polis general-mayoru Kamil Məmmədov iyulun 14-də 92 yaşında vəfat edib.**

1931-ci ildə dekabrın 19-da Bakı şəhərində doğulmuş Kamil Məmmədov Maştağa rayon sovetliyində milis şöbəsinin, Əzizbəyov Rayon 9-cu milis bölməsinin, Azərbaycan SSR DİN-in Milis İdarəsinin Nəqliyyat Şöbəsində Su Milis Bölməsinin və DİN-in SƏDM üzrə (İqtisadi Sahədə Cinayətkarlığa Qarşı Mübarizə) İdarə rəisi vəzifələrində xidmət edib.

1981-ci ildə Azərbaycan SSR daxili işlər nazirinin müavini vəzifəsinə irəli çəkilib, SSRİ DİN-in 1983-cü il tarixli əmrilə ona "milis general-mayoru" ali xüsusi rütbəsi verilib. 1989-cu ildə səhhətində yaranan problemlə əlaqədar daxili işlər orqanlarından təqaüdə yollanıb.

Təqaüdə olmasına baxmayaraq, fəaliyyətini 1992-ci ildə Ağdam şəhərinin müdafiəsi üçün yaradılmış DİN qərargahında davam etdirən Kamil Məmmədov Azərbaycan Respublikası Prezidentinin Qarabağ bölgəsi üzrə səlahiyyətli nümayəndəsinin müşaviri, həmçinin Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə Dağlıq Qarabağda, o cümlədən Xocalıda törədilən soyqırım aktının araşdırılması üzrə İstintaq Komissiyasının üzvü olub.

Ömrünün 30 illini daxili işlər orqanlarında cinayətkarlıqla mübarizə aparmaqla keçirən polis general-mayoru K.Məmmədov Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2011-ci ildə "Vətənə xidmətə görə" 1-ci dərəcəli ordeni ilə təltif olunub.

Bundan başqa, "İctimai asayişin qorunmasında əla xidmətə görə", "Əmək veteranı", "Milis orqanlarında xidmətə görə", "SSRİ Daxili İşlər Nazirliyinin Akademiyası", "Hərbi birliyə görə", Xüsusi Dövlət Mühafizə Xidmətinin və Azərbaycan Polisinin 90, 95 və 100 illiyi medalları ilə təltif edilib.

Vətənpərvəlik, işgüzarlıq, nəciblik və alicənablıq nümunəsi, Vətəninin qocaman təəssübkeşi olan veteran Kamil Məmmədovun əziz xatirəsi onun silahdaşlarının qəlbində əbədi yaşayacaqdır.

Allah rəhmət etsin!

# Məktəblilərin ekskursiyası





Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsinin təşəbbüsü ilə məktəblilər növbəti dəfə Baş DYP İdarəsinin Qeydiyyat-İmtahan İdarəsinin, Ekoloji Nəzarət üzrə Yol-Patrul Xidməti Bölüyünün və DİN-in Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin inzibati binalarına ekskursiyada olublar.

Məktəblilərə yol-patrul xidməti inspektorlarının xidməti fəaliyyəti, yol hərəkət iştirakçılarının rahat, fasiləsiz və təhlükəsiz hərəkəti üçün görülən işlər, inzibati hüquqpozmalara, eləcə də cinayətkarlıqla aparılan mübarizə barədə məlumatlar verilib, xüsusi texniki vasitələr nümayiş etdirilib.

Qeyd edək ki, silsilə tədbir yol hərəkəti təhlükəsizliyinin təbliği ilə bağlı təhsil müəssisələrində aparılan maarifləndirmə işlərini daha da gücləndirmək, eyni zamanda, yol hərəkəti təhlükəsizliyinin təmin olunmasında uşaq və yeniyetmələri aktiv iştirakçılığa cəlb etmək məqsədilə keçirilir.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# KONSTİTUSİYA MƏHKƏMƏSİ QƏRAR QƏBUL EDİB

## Narkotik vasitələrin və ya psixotrop maddələrin təşviqinə görə cinayət məsuliyyətinin müəyyən edilməsi tövsiyə olunub

Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib. Fərhad Abdullayevin sədrliyi ilə keçirilən iclasda Prokurorluğun sorğusu əsasında Cinayət Məcəlləsinin 234.4.4-cü və 236-cı maddələrinin İnzibati Xətalar Məcəlləsinin 428.10-cu maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxılıb.

Məhkəmə narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı əməllərin internet informasiya ehtiyatlarından və ya informasiya-telekommunikasiya şəbəkələrindən yalnız satıcı ilə alıcı arasındakı fərdi rabitə əlaqəsi kimi istifadə edilməklə törədilməsinin kütləvilik əlamətini ehtiva etmədiyindən, həmin maddədə nəzərdə tutulmuş cinayət tərkibini deyil, işin hallarından asılı olaraq həmin Məcəllənin 234.2-ci, 234.3-cü, 234.3-1-ci, 234.4.1-ci, 234.4.2-ci və ya 234.4.3-cü maddələri ilə nəzərdə tutulmuş cinayət tərkibini yaratması barədə qərar qəbul edib.

Azərbaycan Respublikası Konstitusiyasının norma və prinsiplərini nəzərə alaraq Birləşmiş Millətlər Təşkilatının "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" 1988-ci il tarixli Konvensiyasının (3-cü maddəsinin 1-ci bəndinin (c) yarımbəndinin (III) abzasının) tələblərinə riayət edilməklə, narkotik vasitələrin və ya psixotrop maddələrin təşviqinə görə cinayət məsuliyyətinin müəyyən edilməsi Milli Məclisə tövsiyə edilib.

# UNUTSAQ, UNUDULARIQ

## Atadan övlada keçən peşə sevgisi



Bu gün cinayətkarlıqla mübarizədə, gənclərin maarifləndirilməsində, əsl vətəndaş kimi yetişməsində əməyi keçən veteranlarımızın zəhməti, əməyi həm DİN rəhbərliyi tərəfindən qiymətləndirilir, həm də bizlər - əli qələm tutan polislər onların ömür yoluna qəzetimizin səhifələrində yer ayırıb vəfa borcumuzdan çıxmağa çalışırıq. Sıralarımızda 35 il xidmət etmiş, 2010-cu ildə dünyasını dəyişən polis polkovnik-leytenantı Fikrət Quliyevi anmaq da peşəmizə sədaqət, keçmişə sayğımızdan irəli gəlir.

O, 1971-ci ildə daxili işlər orqanlarında milis nəfəri kimi xidmətə başlayıb və Nəqliyyatda Baş Polis İdarəsi rəisinin şəxsi heyət üzrə köməkçisi vəzifəsinədək yüksəlib. Həmkarımız xidməti dövründə nizam-intizamına, eləcə də çətin xidməti-döyüş tapşırıqlarında fərqləndiyinə görə DİN rəhbərliyi tərəfindən ümumilikdə 14 müxtəlif mükafata layiq görülüb.

Birinci Qarabağ müharibəsində şərəfli döyüş yolu keçmiş F.Quliyev çalışdığı dövrdə əməkdaşların xidməti fəaliyyətinin təşkilində, cinayətkarlıqla mübarizədə, DİO-ya yenicə qədəm qoyan gənclərin peşə vərdişlərinin təkmilləşdirilməsində, eləcə də qabaqcıl biliklərin mənimsənilməsində də öz zəngin təcrübəsini bölüşüb.

Onun ömür və xidmət yolunu davam etdirən qızı Gülnarə Baharlı DİN-nin Katibliyinin inspektorudur.



Deyir ki, atasının uniformasına, andına sadiqliyi, həmişə dövlətinin, millətinin xidmətçisi olmaq sevgisi uşaq yaşlarından onda polis olmaq həvəsi oyadıb. Polisin sıralarına gələndən sonra seçdiyi peşənin nə qədər ağır, çətin, şərəfli və məsuliyyətli olduğunu diqqətimizə çatdıran həmkarımız dövlətin əsas sütunlarından biri olan, dövlətə, dövlətçiliyə, hər bir vətəndaşa xidmət edən polis adını daşıdığına görə qürur hissi keçirir.

*Teymur Əlizadə,*
*polis mayoru*

# YOLLARDA İCTİMAİ NƏZARƏT ARTIRILIR

**DYPİ yeni "Whatsapp" hesabını aktivləşdirib**




DİN-in Baş Dövlət Yol Polisi İdarəsi sosial şəbəkələrdə vətəndaşlardan gələn çoxsaylı müraciətləri nəzərə alaraq **050-800-09-02** nömrəli yeni "Whatsapp" hesabını aktivləşdirib.

Vətəndaşlar, yollarda qarşılaşdığı və qeydə aldığı yol hərəkəti qayda pozuntularına dair video və foto görüntüləri qeyd olunan nömrəyə göndərə biləcəklər. Beləliklə, yollarda ictimai nəzarətin həyata keçirilməsində vətəndaşlar iştirak edəcək.

Yenilik yollarda təhlükəsizliyin təmin edilməsi, qəzaların qarşısının alınması və sürücü intizamının yüksəldilməsi məqsədi daşıyır.

Qeyd edək ki, vatsap hesabı yalnız foto və video göndərilməsi üçün nəzərdə tutulub.

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MÜSABİQƏ ELAN EDİR

## Ali təhsilli və kompüter ilə işləmək bacarığı olanlara üstünlük veriləcək

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, nazirliyin müvafiq qurumlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

Müsabiqədə ali və ya orta-ixtisas, yaxud tam orta təhsilli, yaşı 20-dən 27-dək, boyu 180 santimetr və ondan hündür, idman cüssəli, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilərlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyini, yüksək fiziki və psixoloji gərginliklə bağlı olması, eləcə də xidmətin növbəli, bir çox hallarda əsas iş vaxtından əlavə müddətdə aparılacağı baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi, fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş qaydada yoxlanılacaqdır.

Ali təhsilli və kompüter avadanlıqları ilə işləmək qabiliyyətinə malik vətəndaşlara üstünlük veriləcəkdir.

İştirak etmək istəyən şəxslər mia.gov.az/az/vacancies/3/ ünvanında yerləşdirilmiş elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə bki@mia.gov.az ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**
**(012)-590-94-12;**
**(012)-590-93-45.**
**(012)-590-92-37;**
**(012)-590-97-52;**

## Gənc qadınlar operator vəzifələrinə dəvət olunur

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi operator vəzifələri üzrə müvafiq qurumlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

Müsabiqədə yaşı 25-dən 30-dək, boyu 160 santimetrdən yuxarı olan, Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrini bitirmiş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən, Bakı şəhərində daimi qeydiyyatda olan və yaşayan Azərbaycan Respublikasının qadın cinsli vətəndaşları iştirak edə bilərlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyi baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, fiziki hazırlıqları və bilik səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılaraq, kompüter və rabitə avadanlıqları ilə işləmək, analitik düşünmə və araşdırma, düzgün qərar vermək və problem həll etmək qabiliyyətlərinə malik, komandada işləmək bacarıqları və qrammatik bilikləri yüksək səviyyədə olan, məsuliyyətli, diqqətli və inkişafa meyilli, ən azı xarici dillərdən birini sərbəst bilən və ailəli şəxslərə üstünlük veriləcəkdir.

Müsabiqə qaliblərinə Azərbaycan Respublikası DİN-in kadrları tərkibinə daxil edilərək müvafiq xüsusi rütbə verilməklə 500-800 manat aylıq təminat xərcliyi ödəniləcək, habelə qanunvericiliklə müəyyən olunmuş qaydada onların daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaqdır.

İştirak etmək istəyən şəxslər 2023-cü ilin iyul ayının 17-dən avqust ayının 17-dək Daxili İşlər Nazirliyinin internet saytında /www.mia.gov.az/ yerləşdirilmiş elektron ərizə formasını və anket məlumatlarını şəxsən dolduraraq elektron poçt vasitəsilə DİN-in Baş Kadrlar İdarəsinin **bki@mia.gov.az** elektron ünvanına göndərməlidirlər.

**Əlavə məlumat üçün əlaqə telefonları:**
**(012) 590-80-63**
**80-63 daxili**
**(012) 590-80-93**
**80-93 daxili**

## POLİSƏ MİNNƏTDARLIQ EDİRLƏR

"Vətəndaş müraciətinə həssas yanaşan, xidməti vəzifələrini layiqincə yerinə yetirən Azərbaycan Polisinə minnətdaram"

Etibardan sui-istifadə edərək qanunsuz gəlir əldə etmək məqsədi ilə vətəndaşlara zərər vuran şəxslər barədə DİN-nin sosial şəbəkələrdəki səhifələrinə, eləcə də rayon polis idarələrinə və bölmələrinə müraciətlər olunur. Elə bu müraciətlər əsasında dələduzların məsuliyyətə cəlb olunması və vətəndaşlara dəymiş ziyanın ödətdirilməsi istiqamətində daxili işlər orqanlarının əməkdaşları qətiyyətli tədbirlər həyata keçirirlər. Vətəndaşların polisin xidmətindən məmnunluqları DİN-ə ünvanladıqları təşəkkür məktublarında öz əksini tapır.

Belə təşəkkür məktublarından birini Abşeron rayon sakini Rafiq Abdulov yazıb. O, dələduzluqla üzləşdiyini və bununla bağlı aidiyyatı üzrə müraciət etdiyini bildirir. Müraciəti qısa müddətdə öz həllini tapıb və ona dəymiş ziyan tam ödətdirilib. Abşeron Rayon Polis İdarəsində səmimi qəbula və göstərilən köməkliyə görə minnətdarlığını ifadə edir.

"Fuad adlı şəxs tərəfindən işədüzəltmək adı altında 6000 manatımın ələ keçirilməsilə bağlı DİN-ə müraciət etdim. Müraciətimlə əlaqədar Bakı şəhər Baş Polis İdarəsinə dəvət olundum. Orada səmimi münasibətlə bərabər, polis əməkdaşlarının vətəndaşı diqqətlə, səbrlə dinləməsi məndə qürur hissi oyatdı. Azərbaycan Polisinin operativliyi sayəsində mənə dəymiş ziyan qısa müddətdə tam ödətdirildi". Bu məktubu sosial şəbəkə istifadəçisi Könül Əhmədova yazıb.

Digər məktub isə Şahbuz rayon sakini Taqət Mustafayev tərəfindən ünvanlanıb: "Dələduzluq faktıyla əlaqədar Şahbuz RPŞ-yə müraciət etdim. Müraciətimə operativ baxıldı və qısa zaman kəsiyində mənə dəymiş ziyan ödətdirildi. Vətəndaş müraciətinə həssas yanaşan, xidməti vəzifələrini layiqincə yerinə yetirən Azərbaycan Polisinə minnətdaram".

Bakı şəhər sakini Sevda Şahkərimovanın da ünvanladığı məktub bu qəbildəndir. O da dələduzluqla üzləşdiyini bildirir. Müraciətinə Abşeron RPİ-nin Mehdiabad Bölməsində operativ baxılıb və qısa zamanda dəymiş maddi ziyan ödətdirilib. Göstərilən köməkliyə görə təşəkkürünü bildirir.

"Üzləşdiyim dələduzluq faktıyla əlaqədar Binəqədi RPİ-yə ərizə ilə müraciət etdim. Ərizəm əsasında araşdırılmaya başlanıldı və çox keçmədi ki, müraciətim müsbət həllini tapdı. Dəymiş maddi ziyan tam ödətdirildi. Bu işdə əməyi keçən hər bir polis əməkdaşına minnətdaram". Bu sözlər isə Bakı şəhər sakini Kifayət Yəhyayevanın ünvanımıza göndərdiyi təşəkkür məktubundandır.

Bakı şəhər sakini Nigar Məmmədzadə: "Xəstə övladımın kartından pul oğurlayan şəxsin tez bir zamanda tapılaraq məsuliyyətə cəlb olunmasında göstərilən köməkliyə görə Sabunçu Rayon Polis İdarəsinin və Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsinin şəxsi heyətinə təşəkkür edirəm. Azərbaycan Polisi ilə fəxr edirəm".

Bu məktublar bir daha təsdiq edir ki, polis asayişi qorumaqla, təhlükəsizliyi təmin etməklə yanaşı, vətəndaşın hüquqlarını qorumaq öhdəliyinin məsuliyyətini də hiss edir. Güvənc yeri olmaq, etibar qazanmaq, etimadı doğrultmaq da məhz bu səbəbdəndir.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

## Uğurla nəticələnən əməliyyatlar

İyulun 3-də Nizami rayonunun İ.Həbibov küçəsində yerləşən ödəmə terminallarından birinin yararsız hala salınması barədə polisə məlumat daxil olub.

**Nizami RPİ 23-cü Polis Bölməsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində əmlakı qəsdən məhv etmədə şübhəli bilinən Bakı şəhər sakini Z.Hüseynov müəyyən olunaraq saxlanılıb.

◆◆◆

**Nizami RPİ 24-cü Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində iyulun 13-də Q.Qarayev prospektindəki evlərin birindən 2000 manat dəyərində televizor, 3 ədəd qol saatı və bəzək əşyaları oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakinləri, əvvəllər məhkum olunmuşlar N.Qoçəliyev və E.Əliyev saxlanılıblar.

Araşdırmalarla onların daha bir evdən 400 manat dəyərində velosiped oğurlamaları da müəyyən olunub.

◆◆◆

**Yasamal RPİ 26-cı Polis Bölməsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində iyulun 15-də B.Səfəroğlu küçəsində Sumqayıt şəhər sakini K.Həsənovu kəsici alətlə hədələyərək 110 manatını quldurluq yolu ilə talamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər də eyni əmələ görə məhkum olunmuş E.Zamanov və S.Əsgərov müəyyən olunaraq saxlanılıblar.

◆◆◆

**Səbail RPİ 41-ci Polis Bölməsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində iyulun 14-də Şıx qəsəbəsi ərazisindəki çimərlikdə bir nəfərin içərisində 950 manatı, bank kartları və sənədi olan cüzdanını oğurlamaqda şübhəli bilinən Astara rayon sakini K.Zahidov müəyyən olunaraq saxlanılıb.

◆◆◆

**Bakı ŞBPİ Cinayət Axtarışı İdarəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində iyulun 10-da Biləsuvar rayon sakini olan bir nəfərin elektron bank hesabından 360 manat pul oğurlamaqda şübhəli bilinən Sumqayıt şəhər sakini N.Mustafayev müəyyən edilərək saxlanılıb.

◆◆◆

**Xətai RPİ 37-ci Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində iyulun 12-də rayon ərazisində "VAZ-2106" markalı bir avtomobildən 1200 manat pul, 180 manat dəyərində eynək və 2 ədəd ətir oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini X.Quliyev müəyyən edilərək saxlanılıb.

# 148 yaşlı mətbuatımız




Məlum olduğu kimi, "Əkinçi" qəzetinin nəşrə başladığı gün - 22 iyul Milli Mətbuat və Jurnalistika Günü kimi qeyd olunur.

22 iyul 1875-ci ildə görkəmli ziyalı Həsən bəy Zərdabinin böyük çətinliklərdən sonra nəşr etdirdiyi "Əkinçi" qəzetinin cəmi 56 nömrəsi işıq üzü görə bildi. Çox qısa ömür yaşayan, xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə öz böyük töhfəsini verən milli mətbuatımız vətənpərvərlik hisslərinin aşılanmasında, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynadı. Yarandığı 148 il ərzində Azərbaycan milli mətbuatı zəngin və mənalı bir inkişaf yolu keçərək Azərbaycan xalqının qədim ədəbi və mədəni irsə malik olması, Şərq və Qərb sivilizasiyasının qovuşduğu məkanda formalaşan demokratik milli mətbuatın gələcək inkişafı üçün möhkəm zəmin yaratdı.

Bu gün ölkəmizdə yüzlərlə mətbu orqan - qəzet və jurnal fəaliyyət göstərir. DİN Mətbuat Xidmətinin "Polis" qəzeti də geniş oxucu auditoriyası ilə Zərdabi məktəbini, maarifləndirici işini öz əsrində davam etdirir.

# İDMAN XRONİKASI

## Peşə hazırlığını yüksəldən yarış

DİN-in İdman Cəmiyyətinin təşkilatçılığı ilə Ağdam idman olimpiya mərkəzində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş Ağdam Rayon Polis Şöbəsinin əməkdaşları arasında silahsız özünümüdafiə və əlbəyaxa döyüş üzrə yarış keçirilib.

DİN İdman Cəmiyyətinin idman təşkili bölməsinin baş inspektoru, Əməkdar məşqçisi, polis polkovnik-leytenantı Aydın Həşimovun hakimliyi ilə keçirilən yarışın ilk mərhələsində 47, ikinci mərhələsində isə 17 nəfər mübarizəyə qatılıb.

Həm açılış, həm də mükafatlandırılma mərasimlərində iştirak edən Ağdam RPŞ-nin rəisi, polis polkovniki Pərviz İsmayılov nəticə əldə edən idmançılara medal və diplomlar təqdim edib.

*Ruslan Vəliyev*

## Polkovnikə həsr olunan turnir




Göyçay şəhərində mərhum polis polkovniki Varis Məcidovun xatirəsinə həsr olunmuş şahmat turniri keçirilib.

Turnirin təntənəli açılışı mərasimində rayon ictimaiyyətinin nümayəndləri, polis veteranları, Vətən müharibəsi iştirakçıları və qazilər iştirak edib.

Tədbirdə xalqmızın ən ağır günlərindən öz canını təhlükəyə atıb xilsakara çevrilən Varis Məcidovun fədakarlığından, mübarizə dolu həyatından söz açılıb.

Qeyd edilib ki, əvvəllər Rusiyanın Ulyanovsk şəhərində hüquq mühafizə orqanlarında fəaliyyət göstərən Varis Məcidov 20 Yanvar faciəsini lentə alan telejurnalistlərin, Bakı qırğınları haqqında dünyanı məlumatlandıran gəmi kapitanlarının, xüsusən Ulyanovsk təcridxanasında saxlanılan 46 nəfərin ən müxtəlif vasitələrlə azad edilib ölkəmizə yola salınmasında böyük xidmətləri olub.

Bu hadisədən sonra çoxsaylı təzyiqlərlə üzləşən Varis Məcidov Vətənə dönüb və daxili işlər orqanlarında müxtəlif məsul vəzifələrdə xidmət edərək, polkovnik rütbəsinədək yüksəlib. 2005-ci ildə avtomobil qəzasında dünyasını dəyişib.

Çıxışlardan sonra məktəblilərin yarışdığı turnirə start verilib. Dörd gün davam edən yarışda 12 yaş qrupu üzrə 106 şahmatçı mübarizə aparıb. Gənclərin böyük həvəslə iştirak etdikləri turnirdə ilk 3 yeri tutanlar medal və diplomlarla təltif olunublar.

Polis polkovnikinin xatirəsinə həsr edilmiş turnirin hər il keçirilməsi nəzərdə tutulur.

*Rəşad Mehtiyev*

POLİS
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR:
HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10375
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Çapa imzalanmışdır 20:30
Qiyməti 40 qəpik